**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

# ƏMR

**3 oktyabr 2025-ci il** **10-1/3-1-186/2025**

## Beynəlxalq Audit Standartlarının və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tələblərinə riayət edilməməsinə görə intizam və tənbeh tədbirləri barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının İctimai nəzarət komitəsinin sədri C.Həsənov tərəfindən təqdim edilmiş 2025-ci il 01 sentyabr tarixli xidməti məktub və arayışa və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədov tərəfindən təqdim edilmiş 2025-ci il 26 sentyabr tarixli xidməti məktuba əsasən (xidməti məktublar və arayış əlavə olunur) Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında Əsasnamə"yə uyğun olaraq "Capital Audit" məhdud məsuliyyətli cəmiyyətinin direktoru Bəhmənov Elçin Yavər oğlu və auditoru Əliyev Razi Təhməz oğlu barələrində intizam və tənbeh tədbirləri görülməsi məqsədilə **əmr edirəm:**

1. Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında Əsasnamə"nin 5-ci "Xəbərdarlıq tənbehi" maddəsinin 6-cı "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsində (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) nəzərdə tutulmuş peşə məsuliyyəti müddəalarına əməl edilməməsi", 10-cu "Yuxarıda sadalananlarla yanaşı, peşənin işgüzar nüfuzuna zidd hərəkətlər etməklə, vəzifənin tələb etdiyi etimadı sarsıdan hərəkətlər etməsi", 11-ci "Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsi və keyfiyyətsiz auditor xidməti göstərilməsi", 12-ci "Auditor xidməti göstərərkən nöqsanlara və qanun pozuntularına yol verilməsi" və 6-cı "Töhmət tənbehi" maddəsinin 4-cü "Peşə mənsubları/üzvləri tərəfindən yazılı xidmət müqaviləsi bağlamadan xidmət göstərilməsi" bəndlərinə əsasən, habelə Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tamlıq, obyektivlik və peşəkar davranış prinsiplərinə əməl etmədiyinə görə "Capital Audit" məhdud məsuliyyətli cəmiyyətinin

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Fəxrəddin İsmayılov / Rəhbərlik / Sədrin müavini

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/z7NZlk7dhRn5JXr6ckTtyOM0kilNS3AojFVItlxl5cw%3D

direktoru Bəhmənov Elçin Yavər oğluna və auditoru Əliyev Razi Təhməz oğluna şəxsi işlərinə qeyd edilməklə töhmət elan edilsin.

2. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir həftə müddətində bu əmrdən irəli gələn məsələləri həll etsin.

3. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, üç gün müddətində bu əmrin mətninin xəbərdarlıq məktubu ilə birlikdə qeyd edilən auditor təşkilatına göndərilməsini təmin etsin.

4. Bu əmrin mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədr müavini** **Fəxrəddin İsmayılov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Fəxrəddin İsmayılov / Rəhbərlik / Sədrin müavini

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/z7NZlk7dhRn5JXr6ckTtyOM0kilNS3AojFVltlxl5cw%3D